Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın "Vergi və hesabatlılıq"

İşçi qrupunun iclasının

PROTOKOLU

Bakı şəhəri 25 iyun 2026-cı il

İştirakçılar:

1. İlkin Vəliyev – Dövlət Vergi Xidmətinin rəis müavini, İşçi qrupun rəhbəri;
2. Nicat İmanov – Dövlət Vergi Xidmətinin Vergi siyasəti baş idarəsinin rəisi, İşçi qrupun rəhbərinin müavini;
3. Elçin Namazlı - Dövlət Vergi Xidmətinin Bəyannamələr və kameral vergi yoxlamalarına nəzarət baş idarəsinin rəisi;
4. Nicat Həsənov - Dövlət Vergi Xidmətinin Rəqəmsal vergi inzibatçılığı baş idarəsinin rəis müavini;
5. Rəşad Nuriyev - Dövlət Vergi Xidmətinin Vergi siyasəti baş idarəsinin Vergi siyasəti idarəsinin rəisi;
6. Şahin Məmmədov - Dövlət Vergi Xidmətinin Media və kommunikasiya idarəsinin rəis müavini;
7. Zakir Nuriyev - Azərbaycan Banklar Assosiasiyasının Prezidenti;
8. Yadulla Rəhimov - "City Services Group" MMC;
9. Mikayıl Yusifov- "İnci Group of Companies" QSC;
10. Saqi Vəliyev - "Veysəloğlu" MMC;
11. Günel Hadıyeva- "Ekvita Consulting" MMC;
12. Miramal Ağayev- Fərdi Sahibkar;
13. Afət Əhmədova- "Brightman BMC" MMC;
14. Vüqar Eyvazov- Özəl Tibb Müəssisələri Assosiasiyası;
15. Rəşad Göyüşov- "Baker Tilly Audit Azərbaycan" QSC;
16. Elniz İsayev- Veritas Legal Center;
17. Cavid Nəcəfov - "Beynəlxalq Maliyyə Və Mühasibat Mərkəzi" MMC;
18. Aytən İmamquliyeva- "ABS PARTNER" MMC
19. Elxan Mərdanlı- "Mozaik Qrup" MMC;
20. Turan Əlizadə - Dövlət Vergi Xidmətinin Beynəlxalq vergitutma və vergi monitorinqi baş idarəsinin Rəqəmsal iqtisadiyyat üzrə vergitutma şöbəsinin baş dövlət vergi müfəttişi, İşçi qrupunun katibi.

Müzakirə olunmuş məsələlər:

- Sahibkarlıq fəaliyyətinə maneə və çətinliklərin aradan qaldırılması, vergi inzibatçılığının təkmilləşdirilməsi və biznes mühitinin yaxşılaşdırılması məqsədilə aidiyyəti qurumlar, biznes assosiasiyaları və sahibkarlıq subyektləri tərəfindən təqdim edilmiş təkliflərin müzakirəsi;

İclasın gedişatı:

Cari ilin 25 iyun tarixində Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın "Vergi və hesabatlılıq" İşçi qrupunun növbədənkənar iclası keçirilmişdir.

İşçi qrupun rəhbəri, Dövlət Vergi Xidmətinin rəis müavini İlkin Vəliyev görüş iştirakçılarını salamlamış, görüşün məqsədini nümayəndələrə elan etmişdir.

Qeyd olunmuşdur ki, Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi sosial-iqtisadi inkişaf prioritetlərinə uyğun olaraq, ölkədə sahibkarlıq fəaliyyətinin dəstəklənməsi, biznes mühitinin daha da təkmilləşdirilməsi və özəl sektorun inkişafının sürətləndirilməsi istiqamətində ardıcıl islahatlar həyata keçirilir. Bu baxımdan sahibkarların fəaliyyət prosesində qarşılaşdıqları maneə və çətinliklərin vaxtında müəyyənləşdirilməsi, onların sistemli şəkildə təhlil edilərək aradan qaldırılması, eləcə də dövlət-biznes əməkdaşlığının daha da gücləndirilməsi xüsusi əhəmiyyət daşıyır.

Bununla yanaşı vurğulanmışdır ki, vergi inzibatçılığının müasir çağırışlara uyğun olaraq davamlı təkmilləşdirilməsi, vergi ödəyicilərinin inzibati yükünün azaldılması, rəqəmsal xidmətlərin əlçatanlığının və funksionallığının artırılması, vergi münasibətlərində şəffaflığın, qarşılıqlı etimadın və könüllü əməletmə səviyyəsinin yüksəldilməsi istiqamətində sistemli tədbirlər həyata keçirilir.

Daha sonra Azərbaycan Banklar Assosiasiyasının Prezidenti Zakir Nuriyev çıxış edərək, sahibkarlıq subyektlərinin fəaliyyətinə təsir göstərən aktual məsələlərin müzakirəsi məqsədilə belə görüşlərin təşkilinə görə Dövlət Vergi Xidmətinin rəhbərliyinə təşəkkürünü bildirmişdir. O qeyd etmişdir ki, dövlət qurumları ilə özəl sektor nümayəndələri arasında açıq və konstruktiv dialoq platformalarının yaradılması mövcud problemlərin operativ müəyyənləşdirilməsi, praktiki həll yollarının hazırlanması və vergi inzibatçılığının daha da təkmilləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Z.Nuriyev həmçinin vurğulamışdır ki, biznes assosiasiyalarının və sahibkarlıq subyektlərinin təkliflərinin müntəzəm əsasda dinlənilməsi, onların aidiyyəti dövlət qurumları ilə birgə müzakirə olunması, eləcə də bu istiqamətdə institusional əməkdaşlıq mexanizmlərinin davamlı şəkildə tətbiq edilməsi biznes mühitinin daha da yaxşılaşdırılmasına, sahibkarların qarşılaşdıqları çətinliklərin vaxtında aradan qaldırılmasına və həyata keçirilən islahatların səmərəliliyinin artırılmasına mühüm töhfə verəcəkdir.

Daha sonra iclas iştirakçıları tərəfindən sahibkarlıq fəaliyyətinə maneə və çətinliklərin aradan qaldırılması, vergi inzibatçılığının təkmilləşdirilməsi və biznes mühitinin yaxşılaşdırılması istiqamətində təqdim olunmuş təkliflər müzakirə edilmişdir.

Müzakirələr zamanı aşağıdakı istiqamətlər üzrə təkliflər səsləndirilmişdir:

- vergi inzibatçılığı prosedurlarının sadələşdirilməsi;
- elektron xidmətlərin funksionallığının genişləndirilməsi;
- vergi ödəyicilərinə göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi;
- sahibkarların məlumatlandırılması və maarifləndirilməsi mexanizmlərinin təkmilləşdirilməsi;
- normativ hüquqi aktların tətbiqi zamanı yaranan praktiki çətinliklərin aradan qaldırılması;
- vergi orqanları ilə biznes subyektləri arasında kommunikasiyanın gücləndirilməsi.

Təqdim edilmiş təkliflər üzrə aparılan müzakirələr zamanı onların iqtisadi səmərəliliyi, hüquqi əsasları, tətbiq imkanları və gözlənilən nəticələri ətraflı təhlil edilmişdir.

Bununla əlaqədar olaraq, təkliflərin prioritetləşdirilməsi, onların icra imkanlarının qiymətləndirilməsi və həyata keçirilməsi məqsədəuyğun hesab olunan təşəbbüslərin müəyyənləşdirilməsi istiqamətində fikir mübadiləsi aparılmışdır.

Qeyd edilmişdir ki, nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi vergi sistemində şəffaflığın və hesabatlılığın artırılmasına, sahibkarların inzibati xərclərinin və vaxt itkisinin azaldılmasına, biznes fəaliyyəti üçün daha əlverişli və proqnozlaşdırıla bilən mühitin formalaşdırılmasına, investisiya cəlbediciliyinin yüksəldilməsinə və nəticə etibarilə Azərbaycanın beynəlxalq reytinqlərdə mövqeyinin daha da möhkəmləndirilməsinə töhfə verəcəkdir.

Bununla yanaşı, İşçi qrupunun fəaliyyəti çərçivəsində gələcək dövrdə də müxtəlif mövzular üzrə tematik iclasların, ekspert müzakirələrinin və məsləhətləşmə platformalarının təşkilinin davam etdiriləcəyi bildirilmişdir.

Müzakirələr zamanı İşçi qrupun rəhbərinin müavini, Vergi siyasəti baş idarəsinin rəisi Nicat İmanov tərəfindən qeyd olunmuşdur ki, təkliflərin səmərəli qiymətləndirilməsi və mövqelərinin uzlaşdırılması məqsədilə növbəti mərhələdə koordinasiya qrupunun üzvlərinin iştirakı ilə əyani formatda geniş müzakirələrin keçirilməsi məqsədəuyğundur. Bildirilmişdir ki, bu format təqdim olunmuş təşəbbüslərin daha dərindən təhlilinə, prioritetlərin dəqiqləşdirilməsinə xidmət edəcəkdir.

Qeyd edilmişdir ki, İşçi qrupunun üzvləri, biznes assosiasiyaları və ekspertlər tərəfindən təqdim olunacaq yeni təşəbbüslərin operativ qaydada nəzərdən keçirilməsi və müzakirəsi üçün əlavə əməkdaşlıq mexanizmləri formalaşdırılacaqdır.

Sonda Dövlət Vergi Xidmətinin rəis müavini, İşçi qrupun rəhbəri İlkin Vəliyev görüləcək işlərin effektiv icrası baxımından İşçi qrupun üzvlərini və aidiyyəti tərəfləri təşəbbüskar və proaktiv yanaşma nümayiş etdirməyə, təqdim olunan təkliflərin reallaşdırılması istiqamətində qarşılıqlı əməkdaşlığı daha da gücləndirməyə, habelə biznes mühitinin təkmilləşdirilməsinə xidmət edən islahatların həyata keçirilməsində fəal iştirak etməyə çağırmışdır.

Yekunda qərara alınmışdır:

1. İclas çərçivəsində təqdim edilmiş təkliflərin daha ətraflı müzakirəsi və koordinasiyanın gücləndirilməsi məqsədilə növbəti mərhələdə "Vergi sahəsində sahibkarlıq fəaliyyətinə maneə və çətinliklərin müəyyənləşdirilməsi və müvafiq təkliflərin hazırlanması üzrə Altqrupu"nun koordinasiya qrupunun nümayəndələri müzakirələrə dəvət olunmaqla əyani formatda geniş tərkibli görüşün təşkili məqsədəuyğun hesab edilsin. (icraçı; Vergi siyasəti baş idarəsi, icra müddəti: İyul ayı ərzində);

2. Vergi sahəsində dövlət–özəl sektor dialoqunun davamlılığının təmin edilməsi məqsədilə biznes assosiasiyaları, sahibkarlıq subyektlərinin iştirakı ilə mütəmadi məsləhətləşmələr davam etdirilsin, zərurət yarandığı halda "Vergi və hesabatlılıq" İşçi qrupunun rüblük iclaslarında "Vergi sahəsində sahibkarlıq fəaliyyətinə maneə və çətinliklərin müəyyənləşdirilməsi və müvafiq təkliflərin hazırlanması üzrə Altqrupu"nun nümayəndələrinin iştirakı təmin edilsin, həmin platformalarda aktual məsələlərin və irəli sürülən təkliflərin müntəzəm müzakirəsi, onların icra vəziyyətinin qiymətləndirilməsi və razılaşdırılmış istiqamətlər üzrə zəruri tədbirlərin həyata keçirilməsi təmin edilsin. (icraçı: İşçi qrupunun katibliyi, icra müddəti: Mütəmadi).

Biznes mühiti və beynəlxalq
reytinqlər üzrə Komissiyanın
"Vergi və hesabatlılıq" İşçi qrupunun rəhbəri,
Dövlət Vergi Xidmətinin rəis müavini,
3-cü dərəcəli dövlət vergi xidməti müşaviri **İlkin Vəliyev**

Biznes mühiti və beynəlxalq
reytinqlər üzrə Komissiyanın
"Vergi və hesabatlılıq" İşçi qrupunun katibi **Turan Əlizadə**